*UOT 711.4*

***Gülnarə Əskərəlizadə***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***Azərbaycan Memarlıq və İnşaat Universiteti***
***(Azərbaycan)***
***gulua.as@gmail.com***

# MÜASİR AZƏRBAYCAN DİZAYNININ İNKİŞAF TENDENSİYALARI

**Xülasə.** Məqalədə müəllif Azərbaycan müasir memarlıq, sənaye və poliqrafiya dizaynı inkişafının ümumi mənzərəsini bədii-layihə təfəkkürünün yeganə sahəsi kimi təsvir edir. Eləcə də Azərbaycan dizaynının təmayüllərini ümumiləşdirir, təhlil edir və son iyirmi ildə memarlıq, sənaye və poliqrafiya dizaynı sahəsində əsas yerli ustaların yaradıcılıq töhfəsini qiymətləndirir. Burada Azərbaycanın müasir vizual mədəniyyətini formalaşdıran dizaynın bədii dilinin əsas elementləri və qabaqcıl meyllər nəzərdən keçirilir.

**Açar sözlər:** poliqrafiya, sənaye dizaynı, müasir üslub, memarlıq, inkisaf təmayülləri.

**Giriş.** 1990-cı illərin əvvəllərində müstəqil Azərbaycan Respublikasının siyasi, iqtisadi, mədəni, incəsənət həyatında baş verən dəyişikliklərlə bağlı ölkədə Sovet ideologiyası dövrü də başa çatdı və incəsənət, memarlıq və dizayn sahələrində də xeyli dəyişikliklər baş verdi. Həmin illər qeyd olunan dəyişikliklərlə birgə, həmçinin sosial və konkret sifarişin xarakteri, professional fəaliyyətin mahiyyəti, metodları və təşkil strukturu da dəyişdi və Azərbaycanın memar və dizaynerləri da bu prosesə fəal şəkildə qoşuldu.

Ən geniş mənada müasir dizayn anlayışı Azərbaycan cəmiyyətinin məişət və sosial şuuruna üzvü şəkildə daxil olan ayrılmaz xüsusiyyətinə çevrildi. Dizayn ölkənin müasir iqtisadi siyasətinin mühüm elementi olaraq, onun dünya bazarında dayanıqlığınının və rəqəbət üstünlüyünün təminedicisi oldu. Həqiqətən də, ölkəmizdə mədəniyyət və iqtisadiyyat elementi kimi dizayn sahəsi ildən-ilə öz aktuallığını artırır və əsaslı dəyişikliklərə məruz qalır.

Əsas materialının şərhi. Məlum olduğu kimi, ölkənin 1990-ci illərdən sonrakı iqtisadi dirçəlişi sosial həyatın və mədəniyyətin, incəsənət və memarlığın, o cümlədən də dizaynın keyfiyyət göstəricilərinin təkmilləşdirilməsinə və inkişafına səbəb oldu, yerli dizayn da keyfiyyət və kəmiyyətcə yeni səviyyəyə çıxdı.

Məhz bu dövrdə də yerli bədii konstruksiyalaşma da (Sovet dövrü bu fəaliyyət növü belə adlanırdı) qlobal dizayn sisteminə inteqrasiya etməyə başladı. Bu proses dizayn üçün aktual olan iqtisadi, sosial-mədəni, informasiya, psixoloji, texnoloji, erqonometrik və əlbəttə ki, bədii-üslub səviyyəsi kimi bütün səviyyələrdə baş verir.

Müasir Azərbaycan dizaynı memarlıq, sənaye və poliqrafik dizaynı sahəsində öz inkişafını davam edərək, yeni dünya tendensiyalarının tələblərinə cavab verən dilini formalaşdırır. Yerli dizayn maddi-məkan mühitini təşkil edən bütün dizayn sahələri üçün vahid bədii təzahürə çevrilir, respublikada müəllif dizaynı təzahürü get-gedə özünü təsdiqlətir. Memarlıq əsərlərinin eksteryer və interyerlərində, landşaft memarlığında, poliqrafiya məmulatlarının, mebel və geyimin bədii konstruktivləşməsi sahəsində çalışan bir sıra sənətkarlar müəllif dizaynına öz yaradıcılıq töhvələrini gətirirlər. Burada dizaynın bütün növləri ilə yanaşı, növdaxili sahələri də inkişaf edir: sənaye dizaynı dedikdə bura təkcə avadanlıq, mebel, məişət əşyaları dizaynı deyil, həm də geyim, ayaqqabı, aksesuar və porfümeriya dizaynı da daxildir. Məhz bu sahələrdə, poliqrafiyada olduğu kimi, Azərbaycan müəllif dizaynı kimi maraqlı təzahürlər formalaşır.

Müasir dövrün Azərbaycan dizaynının hadisələri, təzahürləri və tərkib hissələri öz dayanaqlığına və milli özünəməxsusluğuna baxmayaraq, dünya bədii-üslub sistemlərinin müəyyən inkişaf qanunauyğunluğuna uyğun inkişaf edir. Bundan əlavə, Azərbaycan dizaynının bütün sahələri - hər-biri ayrı-aylıqda və bütövlükdə unikal və yüksək dərəcədə özünəməxsus adlandırılan bir sıra bədii-üslub təzahürlərini əks edir. Azərbaycan dizaynı bu gün konsentrasiya olunmuş şəkildə qlobal informasiyaya və mədəni məkana daxil olur və müxtəlif üslub xüsusiyyətlərində öz əksini tapır.

1990-cı illərdə hələ bir tərəfdən yeni ticarət əlaqələri və beynəlxalq bazara çıxış hələ formalaşmamış, digər tərəfdən isə müəssisələrin fəaliyyətsizliyi əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb olmuşdur. Bu səbəbdən də əhalinin sosial-mədəni təlabatları əsasən Çindən, Koreyadan, İrandan, Türkiyədən ölkəyə şəxsi sahibkarlar tərəfindən gətirilən və xüsusi keyfiyətlə seçilməyən mallar sayəsində ödənilirdi.

Geyim və xırda məişət mallarından fərqli olaraq, iri həcmli malların, məsələn mebel dəstlərinin və avtomobillərin kütləvi satışının təşkilində bu problemin kəskinləşməsinin qarşısının alınması mümkün olmadı. Belə mürəkkəb, ziddiyətli şəraitlərdə fərdi sektorun janlanması baş verdi. Əhali tələbatının

əsasında və bazarın konyekturasının öyrənilməsinin nəticəsində müxtəlif profilli və təyinatlı müəssisələr təsis edilir və işə başlayırdı.

Bu şirkətlər tərəfindən istehsal edilən məmulatların çeşidində müxtəlif mebel növlərinə rast gəlinməsi diqqəti cəlb edir. Onların sırasında “Müller İnteryer”, ”İnterior design Co”, “İdeal dizayn”, “Maxi Dizayn”, “Elit Mebel”, “Rovşen Oğuz Qrupu” və b. adlatını çəkmək olar. Qeyd etmək lazımdır ki, yerli istehsal olan bir çox yerli məhsullar keyfiyyətcə xarici məhsullardan geri qalmır. Lakin kütləvi istehsal olan mebellərə gəldikdə isə burada neqativ hallar, çatışmamazlıqlar müşahidə edilir. Bu da ondan irəli gəlir ki, yığılması kiçik sexlərdə həyata keçən mebellərin (xüsusən də oturacaq və divanların) xarici görkəminin dizaynıutilitar və funksional tələblərinə cavab versə də, bəzən estetik tələblərə uyğun olmurdu.

Əksinə, 1992-ci ildə təsis edilən və mebel dizaynı ilə məşqul olan “Müller İnteryer” şirkətinin qrupu, 1995-ci ildən mebel istehsal edən “İnterior design Co” şirkəti və digər bu növ şirkətlər özlərini istehlak bazarında təsdiqləməyə nail oldular. “Müller İnteryer” şirkətinin istehsal etdiyi məhsular tam beynəlxalq erqonomik və gigiyenik standartlara uyğun olduğu üçün, dəfələrlə xüsusi sertifikatlarla təltif edilmişdir. Funksional nöqteyi-nəzərdən bütün tələblərə cavab verən kompüter masaları, bank və otellər üçün mebel nümunələri kəskin təzadlı rənglərə boyanmışdır. Qeyd etmək lazımdır ki, mebel istehsalı ilə yanaşı, bu şirkət xaricdən müxtəlif mebel məhsulları nomenklaturasının çatdırılması və satışı ilə məşquldur.

Mebel dizaynının inkişafının uğurlu göstəricilərindən biri 2004-cü ildə Bakıdakı Heydər Əliyev adına idman-konsert kompleksində keçirdilən II Azərbaycan Beynəlxalq mebel, ağac məmulatları və interyer dizaynı sərgisi oldu. Burada ictimayyətə “İdeal dizayn”, “İnterior design Co”, “Maxi Dizayn”, “Elit mebel”, “Rövşən Oğuz Qrupu” və b şirkətlərin istehsal etdikləri mebel komplektləri nümayiş etdirildi. Bu şirkətlərin fəaliyyət sahələri tamamən eyni olsa da, hazırlanmış mebel örnəklərinin formayaradıcılığı tamamən fərqlidir. Ə.Ə. Salamzadənin yazdığı kimi, “Əgər “İdeal di-zayn” şirkəti öz layihələrində demokratik, sərbəst mebel modelləri istehsal edirsə, “Röv-şən Oğuz Qrupu» şirkətinin mebel örnəkləri daha konservativ xarakter daşıyır” [6, s. 45].

Mebel dizaynının daha bir ayrılmaz tərkib hissəsi – interyerin estetik təşkilində mühüm rol oynayan qapı istehsalıdır. Bu istiqamətdə «İnterior design Co», «Rövşən Oğuz Qrupu», «Elit mebel» və b. kimi bir sıra şirkətlər çalı-

şır ki, onların bəzilərinin adları yuxarıda qeyd edilmişdir. Lakin qeyd etmək lazımdır ki, bu sahədə yerli istehsalçıların lideri "Avropa qapıları"-dır. Bu şirkətin fəaliyyəti artık uzun zamandır ki, özünü daxili bazarda təsdiqləyib, burada hazırlanan müxtəlif qapı modelləri təkcə öz yüksək keyfiyyəti ilə deyil, həm də öz estetik xüsusiyyətləri ilə fərqlənir. Əlbəttə ki, belə növ qapı örnəkləri interyerin ümumi stilistikasının kompleks həllinə imkan verir və ən yüksək zövqə malik istifadəçilərin tələblərinə cavab verir.

Ümumilikdə müasir dövrdə respublikada mebel istehsalının coğrafiyası xeyli genişlənmişdir. Bir sıra şirkətlər əhaliyə regionlarda xidmət göstərərək, onun mədəni-məişət tələblərini ödəyir. Onların arasında Sumqayıtdakı "Ram Lad" və "Sumqayıt" mebel fabrikalarını, Şirvanda "Yeganə" mebel fabrikasını, Masallıda "EMBAVOOD MMC" mebel fabrikasını, Akstafada "Saloğlu" fabrikasını və b. qeyd etmək olar. Gəncə şəhəri və onun ətrafında onlarca mebel şirkəti fəaliyyət göstərir. Məsələn, "333" mebel salonunu, "555" mebel salonunu, "Neapol" salonunu, "İdeal" salonunu, "Yeddi Gözəl" mebel mərkəzini göstərmək olar.

Azərbaycanda müəllif mebel dizaynı müəllifin təkcə məkanın ümumi həlli deyil, həm də onun vəhdətini yaradan fərdi yaşayış evinin və ya mənzilin layihələndirilməsi ilə sıx bağlıdır. Yəni burada söhbət yaşayış mühitinin kompleks layihələndirilməsindən və üslub həllindən gedir. Rəhim Seyfullayevin, Nailə Efendiyevanın, eləcə də "ABC Gallery" və "Fer-Forhe" şirkətlərinin mebel və aksesuarlarının müəllif həlləri olduqca maraqlıdır. Müasir dövr Azərbaycanın mebel dizaynına estetik plüralizm və üslub rəngarəngliyi xasdır.

Geyim dizaynı Azərbaycanda ən çox tələb olunan yaradıcılıq ixtisaslarından biridir. Ölkədə son illərin moda sənayesi yüksək rəqabətlə və inkişaf tempi ilə fərqlənir, həm də eyni zamanda dizaynerlərin yaradıcılıq potensialının reallaşdırılmasına, yüksəl gəlir əldə olunmasına imkan verir. Geyim dizaynının kütləvi istehsal məsələsi, eləcə şablonlar, standartlar problemi bizi yüngül sənayenin uniforma istehsalı sahəsinə müraciət etməyə vadar edir. Uniforma müasir dövrün atributudur. Dalandarlardan, yükdaşıyanlardan və satıcılardan tutmuş, pilotlara, inşaaçılara və tibb işçilərinə kimi bir çox mülki peşə sahibləri uniformadan istifadə edirlər. Azərbaycan iqtisadiyyatının prioretlərini nəzərə alaraq, demək olar ki, neft və qaz sənayesi işçilərinin, eləcə də kimya sənayesi işçilərinin uniforması bizim üçün aktual mövzudur.

Daha sonra məktəb forması kimi xüsusi geyim növü dünyanın hər yerində hər bir ailəyə tanışdır. Məhz uniformanın bu növü yüngül sənayedə ən kütləvi

istehsal məhsuludur. Müstəqillik dövrünün ilk on beş ili elə gəlirdi ki, məktəb forması – keçmiş sovet dövrünə aid bir geyimdir. Lakin 2007-ci ilin avqust ayında Bakı şəhərinin təhsil idarəsi məktəb forması haqqında qərar qəbul etdi. "Bu qərara əsasən hər bir orta məktəb öz qərarına əsasən məktəb kostyumunun tikilişi üçün onun modelini, rəngini və formasını seçə bilərdi" [5, s. 19].

O zaman məktəblərin əksəriyyəti klassik nümunələ üstünlük verdi, təxminən 50 orta məktəb müəssisəsi isə müxtəlif modelləri seçti. Növbəti addım isə bütün ölkə miqyasında atıldı. 2009-cu ilin iyun ayında Azərbaycanın Təhsil nazirliyi eyni məktəb formasına mütləq keçid haqqında qərar qəbul etdi. Bu da bizim ölkədə uniformanın yeni milli formasının yaranması demək idi.

Hal-hazırda məktəblərdə iki məktəb növ formasından istifadə edilir: onlardan biri 1-6-cı siniflər, digəri isə 7-11-ci siniflər üçün nəzərdə tutulub. Oğlan və qızların yeni forması dörd əşyadan ibarətdir. Bu əşyaların kombinasiyası sayəsində məktəb formasını ilin müxtəlif dövrlərində geyinmək olar. Bundan əlavə, məktəb yubkasının orijinal modeli onun üslununun dəyişdirilməsinə imkan verir. Hal-hazırda məktəb forması türk istehsalı olan yüksək keyfiyyətli parçadan Bakı tikiş fabrikasında tikilir. Qeyri-standart geyim ölçülərinə malik uşaqların valideynləri bu fabrikada fərdi tikilən məktəb forması sifariş verə bilər. Bu zaman formanın qiyməti dəyişmir.

Azərbaycanda yeni hərbi forma müstəqillik dövrü yaranmışdır. Bu forma bir qədər sovet dörünün formasından fərqlənsə də, hələ kifayət qədər düşünülməmişdir, bu da Ümmumilli lider Heydər Əliyevin haqlı tənqidinə səbəb oldu. Bu yaxınlarda prezident İlham Əliyevin «Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi geyim forması və fərqlənmə nişanları haqqında» və "Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri»nin təsdiq edilməsi barədə" qərarı qəbul edilmişdir. Bu qərarlardan sonra Azərbaycan ordusunun hərbi forması ümumdünya standartları səviyyəsinə qalxdı. Bu iki geyim növünün dizaynı standarta və şablona əsaslanır və üslub rəngarəngliyi burada təmsil olunmur.

Milli kostyum stilistikası daha rəngarəngdir. Azərbaycan mədəniyyəti bu baxımdan zəngin ənənəçiliyə malikdir. Lakin müasir zamanda milli geyimə yalnız estrada səhnəsində, muzeydə və ofisiantların uniforması kimi xidmət edən restoranlarda rast gəlmək olar. Lakin hətta estradada belə milli kostyum olduqca şərti xarakter daşıyır və olduqca sadədir, yaxud da əksinə müasir materiallar vasitəsi ilə olduqca dekorativdir ki, bu da onun həqiqiliyini azaldır.

Baxılan sahənin olduqca maraqlı və dinamik inkişaf edən nümunələrindən biri də müəllif geyim dizaynıdır. Bu sahənin fərdiliyə və rəngarəngliyə malik olduğu və burada ən müxtəlif üslub tendensiyalarının hakim mövqe tutduğu üçün, bu uniformaya birbaşa ziddir. Şübhəsiz ki, müasir müəllif geyim dizaynı sahəsində ən nüfuzlu nümayəndə Fəxriyyə Xələfovadır. Onu Azərbaycanda müəllif geyim dizaynının banısı hesab etmək olar. F. Xələfova bu sahə ilə 1998-ci ildən məşquldur və bu zaman ərzində o tamaşaçıların və moda sevenlerin qarşısına 10-dan arık öz kolleksiyalarını çıxartmışdır. Onlardan "Sirr", "Neft ilahəsi", "Ümid ritmləri", "Azərbaycan qadınları", "Gözlənilməz zənginlik", "Bahar", "Heyranlıq","Yeni qlamur", "Xəzər qızılgülü" və b. adlarını qeyd etmək olar. Bu modelyerin yaradıcılıq xətti obraz vəhdətindən ibarətdir.

Son illər yerli geyim dizaynının üslub siyasəti daha rəngərəng və müxtəlif olmuşdur. Buna təkcə modelyerlərin özlərinin birliyi deyil, həm də dövlətin bu sahənin inkişafına olan diqqəti səbəb olur. Burada müxtəlif festival və müsabiqələrin keçirilməsini, xüsusi mükafat və mükafat sisteminin yaradılmasınını qeyd etmək lazımdır.

Müasir ölkə dizaynının inkişaf etmiş qollarından biri də poliqrafiya dizaynıdır. Bu sahədə Tərlan Qorçiyev, Novruz Novruzov, Elçin Əliyev, Ruslan Qəniyev, Mayıs Əliyev, Arif Əziz və b. bu kimi dizaynerlər çalışır. Bu sahənin müasir dizaynı adətən çoxsaylı illüstrasiyaları olan böyük həcmli və formatlı nəşrlərdən və bəzən də sadəcə fotoalbomlardan ibarətdir. Onlar Azərbaycanın tarixinə, mədəniyyətinə və incəsənətinə həsr olunduğu üçün, olduqca maraqlı vizual görkəmə malikdir. Bu nəşrlər üslub baxımından çox qeyri-ordinardır, burada konstruktivizm üslubundan retro üslubuna kimi üslub tendensiyasına rast gəlinir.

Məhz Azərbaycanda müəlllif kitab dizaynının formalaşması son illərin nəfis tərtib olunmuş kitab nəşrlərin işlənənib hazırlanması ilə bağlıdır. Adları çəkilən dizaynerlər tərəfindən tərtib edilən kitabların bütün bədii-dekorativ həllərinin və tematika rəngarəngliyi hal-hazırkı məqalə çərçivəsində mümkün deyil. Bizim üçün yalnız dizayn tərtibatı baxımından bir xarakterik kitab nümunəsi seçib, onun dizaynını araşdırmaq məqsədəuyğundur.

Azərbaycanın əməkdar memarı Rəna Əfəndizadənin "XIX əsrin sonunun – XXI əsrin əvvələrinin Azərbaycan memarlığı" (2012) kitabı müasir kitab poliqrafiyası dizaynının maraqlı nümunəsi ola bilər [9]. Bu nəşrin dizayneri Novruz Novruzovdur, lakin onunla bərabər kitabın maketinin layihələndirməsində mətnin müəllifi R.Əfəndizadə də fəal iştirak etmişdir. Burada

müasir Azərbaycan memarlığına həsr edilən fotomateriallar xüsusən vizual vurğulanmışdır. Bakının ən görkəmli binalarının işıq memarlığını, gecə panoramını nümayiş etdirən fotoşəkillərin gözəl kolleksiyası insanı sözün əsl mənasında heyran edir. Kitabın üz cildinin və səyifəsinin kompozisiyası da gözəl yaradıcılıq axtarışının nəticəsidir.

Jurnal kütləvi informasiya və təbliğat vasiyələrindən biridir, istimai fikri onun istiqamətləndirdiyi qrupların marağına uyğun formalaşdıraraq, bu fikrə təsir edir. Jurnal yüksək effektivliklə xarakterizə edilir. Jurnalların mahiyyəti oxucuların fikirlərinə, rəylərinə və istəklərinə təsir edir.Hal-hazırda jurnal – relaksasiya məqsədinə xidmət edir, oxucunun dincəlməsi üçün nəzərdə tutulur. Jurnalın istiqamətlənməsi oxucu bazasını müıyyən edir ki, bu da orada yerləşdirilən informasiyanın oxucu auditoriyasına çatdırılmasına imkan verir. Buna nümunə populyar oxucu üçün nəşr edilən “El”, “Stil”, “Passaj”, “İrs”, “Nərgiz”, “Bakı” jurnalları, iş adamları üçün nəzərdə tutulan “Contakt” jurnalı, gənc qızlar üçün nəzərdə tutulan “Aysel” və “Biz” jurnalları, professional dizaynerlər üçün “Hing Teck” jurnalı, kişilər üçün “Elman” jurnalı və s. ola bilər. “Caspian business”, “Kulina”, “AvtoLedy” və b. bu kimi xüsusi jurnallar da mövcuddur ki, onlar artıq mövcud olan təlabat bazarının seqmentlərinə yönəlmişdir.

Qeyd edək ki, “Passaj” jurnalının nailiyyəti onun səthi məzmun üçün respektabelli forma yaratmaq bacarığında oldu. 2000-ci ildə 100 səhifəlik jurnallar qrupuna “El” jurnalı daxil oldu. Jurnalın retro üslubuna istiqamətlənməsinin xüsusiyyəti xüsusi fotolayihə oldu. Bu layihənin mahiyyəti ondan ibarət idi ki, XIX – XX əsrin əvvəllərinin tarixi şəxsiyyətlərinin obrazında müasir məhşurlardan birinin fotoşəkli verilirdi. Bu layihə şübhəsiz ki, böyük quruluşçu işi, işıq-kölgə modelləşdirməsində böyük dəqiqlik, inanılmaz vizajist və kostüm üzrə rəssam səyləri və nəhayət, retro-portretin tarixi və psixoloji həqiqiliyi tələb edir. Bu seriyanın foto-layihələri jurnalın özünəməxsus vizit kartları oldu, onun üslubunu formalaşdırdı və çox cəhətdən uğurlu oldu.

Son illər “El” jurnalı məlum təkamül yolu keçdi. Bu gün jurnal üslub baxımından retro üslublu ailə tarixi jurnalı kimi üzünü tanıdıb. Burada çox zaman tonla işlənən ağ-qara fotoşəkillərə mütləq üstünlük verilib. Jurnalın dizayneri Rauf İsmixanov klassik simmetrik və yaxud diaqonal açılışlı kompozisiyalara üstünlük verir. Jurnalın şrift kompozisiyası çox sadə və təmkinlidir, rəng baxımından burada əsas mətnin qara rəngi ilə başlıqların və lidlərin (yarımbaşlıqların) qırmızı rəngin təzadından istifadə olunur. Nömrənin mətnindən

və redaktorun sütunundan ibarət jurnalın açılışı da ifadəlidir və rahat oxunur. Jurnalın redaksiya kollegiyası, rikvizitləri və atributları haqqında məlumatın yeri də düzgün tapılmışmışdır: bu səyifəni iki qeyri-bərabər hissəyə ayıran ensiz vertikal zolaqdan ibarətdir.

Artıq bir neçə ildir ki baş redaktoru Heydər Əliyev Fondunun vise-prezidenti Leyla Əliyeva olan "Bakı" jurnalı dərc edilir. Bu jurnal dərhal öz oxucu auditoriyasını qazandı, lakin jurnalın ünvanlı olduğu üçün bu auditoriya o qədər də geniş deyil. "Bakı" jurnalı zərif estetik zövq, burada verilən hadisələrin seçim səviyyəsi, yüksək dizayn tərtibatı və poliqrafik keyfiyyət baxımından fərqlənir. Məzmun baxımından jurnalın redaksiya siyasəti üçün hər bir mədəni hadisə barədə oxucuda tam və dərin təəsürat yaradaraq, bu hadisənin hər tərəfli şərhi xarakterikdir. Bir sözlə "Bakı" jurnalı həqiqi təsvirsevənlər üçündür və kütləvi deyil.

Son он ildə yerli jurnal dizaynının stilistikasında çox yeni tendensiyalar müşahidə edilir. 2013-cu ilin sezon birinciliyini yeni buraxılışa çıxan möhtəşəm "Nargis" jurnalı əldə etdi. Bu təkcə böyük həcmi deyil, 400 səhifədən ibarət olan nəhəng həcmli nəşrdir. Yalnız nəşrin kişik fotoşəkillər-anonslardan ibarət məzmununu nümayiş etdirən hissəsi 20 səhifədən çoxdur. Yüksək poliqrafik səviyyədə yerinə yetirilən nəşr, xüsusi nəfis hədiyyə paketinə yerləşdirilmişdir. Jurnalın həcmi, reklamların yerləşdirilmə prinsipləri, bütün vizyal görünüşü, məqalələrin məzmunu sanki oxucudasakitlik hissi yaradır. Bu təəsürat jurnalın tamanən "retro" üslubunu xatırladan ümumi bədii həlli ilə güclənir. Reyrospektiv stilistikaya olan bu aksent jurnalın qəsdən ciddi, ağ-qara portret fotoşəkillər yerləşdirilən üz qabığında artıq özünü biruzə verir. Qeyd olunan üslub həlli jurnalın iyirmiyə yaxın saat və zinət əşyaları brendləri reklam edilən birinci səyifəsində də təkrarlanır. Reklamlar ciddi şrift kompozisiyasında, bəzən arasına ağ-qara rəngli şirkət işarəsi daxil edilərək, yerinə yetirilib.

Son iki onilliyin aparıcı tendensiyası formatı 100 səyifədən çox olan böyük həcmli jurnalların sayının artmasından ibarətdir. Öz inkişafında vahid orqanizm kimi ön sıraya təkcə jurnalın tematik deyil, həm də vizual konsepsiyasına malik olan nəşrlər çıxardılır. Vizual və stilistik konsepsiyaya malik olan jurnallar arasında ilk növbədə "Passaj", "Nərgiz", "Bakı" jurnallarını qeyd etmək olar.

Müstəqillik dövrünün Azərbaycan dizaynı – mürəkkəb və çoxşaxəli təzahürdür. Son iki onillikdə ölkəmizdə memarlıq, sənaye və poliqrafik dizayn

sahələri inkişaf etmişdir. Bu əsasda memarlıq, sənaye və poliqrafik dizayn bədii-layihə təfəkkürünün vahid sahəsinə çevrilir.

XX-XXI əsrlərin qovşaqlarında Bakıda inşa edilən bir sıra binaların memarlıq dizaynında çox zaman yeni inşaat materiallarının tətbiqi ilə bir sıra yeni tendensiyalar müşahidə edilir. Əvvəlki dövrlərdə olduğu kimi, memarlıq əsərlərinin eksteryerlərində istifadə olunan dizayn tərtibatı əsas xüsisiyyətlər və formalar səviyyəsində baş verir. Lakin bu zaman regional memarlıq əsərləri layihələndirərkən və tarixi formalardan, vasitələrdən, elementlərdən və onların kombinasiyalarından istifadə edərkən, dizaynerlər böyük yaradıcılıq sərbəstliyi əldə edir və bu da yerli lokal memarlığın ümumi ruhunun yaradılması cəhdindən irəli getdilər. Müxtəlif üslub elementləri istifadə edilən yaşayış, ictimai və çoxfunksiyalı binaların müəllifləri Elbay Qasımzadə, Rəhim Seyfullayev, İlqar Bəylərov, Nəriman İmaməliyev, Ramiz Hüseynov, Elçin Əliyev, Novruz Eldarlı, Fərid Akmeyev, eləcə də "Arkon" qrupunun üzvüləri Cahangir Axundov, Kamal Musaxanov və b. bu kimi dizaynner və memarlardır.

"XX əsrin sonunun, XXI əsrin əvvəllərinin bütün memarlığıüçün səmərəçiliyə və novatorluğa meyl edən axtarışlar xarakterikdir. Bu proses həm dünya, həm, həm də Bakı memarlığıüçün ümumi idi. Bütün bu dövrdə memarlıqda ənənə və novator problemi Bakının da memarlıq praktikasında öz əksini tapan mühüm nəzəri problem kimi qalmaqdadır. Bu problem dəyişən və inkişaf edən elm, texnika və tikinti texnologiyası, siyasət və ideologiya, iqtisadi islahatlar fonunda müxtəlif cür təzahür edir" [3, s. 24].

Həmin tendensiyalar daha parlaq otellərin, rekreasiya, əyləncə, eləcə də Olimpiya idman komplekslərinin tikintisində özünü biruzə verdi. Çox zaman mehmanxana tikililəri ilə ofis, yaşayış binalarının üslub ümumiliyi və obraz bənzərliyi izlənilir. Deyilənlərə nümunə kimi Heydər Əliyev Mərkəzinin, SOCAR-in inzibati binasının, "İçəri Şəhər" metro stansiyasının yerüstü pavilyonunun, Muğam mərkəzinin, Nefçilər prospektində Biznes Mərkəzinin, Milli bank binasının, Müqəddəs Mariya katolik kilsəsinin, "Bulvar Plaza", "Green Park», «Green Place» yaşayış komplekslərinin, "Şirvanplaza", "Uniplaza", "Siti-sentrtr". "Şurplaza", "Chirag Plaza", "Dalqa Plaza", «Natavan Residences» ofis binasının, Beynəlxal Avtovağzal kompleksinin, Milli Olimpiya mərkəzinin və b. qeyd etmək olar.

Azərbaycanın müasir memarlığında eklektika qarışık ənənəvi memarlıq və yeni innovasiyon texnologiyalara müraciət kimi iki əsas istiqamət müşahidə edilir. Birinci istiqamət daim üslublara və keçmişin formayaradıcılığına,

ikincisi isə yeni inşaat materiallarına və tikinti üsullarına yönəlir. “Postsovet dövrünün Bakı memarlığında müasir inşaat materiallarının və konstruksiyaların istifadəsi milli və regional fərqləri silir, memarlıqda beynəlmiçilik xüsusiyyətlərinin inkişafına səbəb olur, yeni tələblər binaların obraz quruluşunu dəyişirdi. Memarlıqda forma və mahiyyət öz dövrünün xarakterik xüsusiyyətlərini ifadə edərək, dəyişirdi” [3, s. 26].

**Nəticə.** Sonda onu da qeyd etmək lazımdır ki, müasir Azərbaycan dizaynında, o cümlədən sənaye, poliografiya və memarlıq dizaynı sahəsində üslub axtarışlarının yeni diapazonu müəyyən edilir və ölkə dizaynı özünü dünya dizaynının ayrılmaz bir hissəsi kimi tanımağa başladır.

***Açar sözlər:*** poligrafiya, sənaye dizaynı, müasir üslub, memarlıq, inkişaf tendensiyaları.

**ƏDƏBİYYAT:**

1. Абдуллаева Р.Г. Проблема художественного стиля в информационной культуре. – Баку, 2003.
2. Абдуллаев Ф.Ф. Дизайн в условиях информационного общества. Дисс. канд. иск. Баку, 2005.
3. Mikayilova M.N. Bakı şəhərinin postsovet dövrünün (1990-2000-ci illərin əvvəllərinin) memarliq üslubları. Azərbaycan Memarlıq və İnşaat Universitetinin “Elmi əsərlər” jurnalı, № 1. Bakı, 2012.
4. Теоретические и методологические исследования в дизайне. М., 2004.
5. «Форменное» безобразие.// Зеркало, 2012, № 145.
6. Salamzadə Ə.Ə. Dizayn və informasiya. Bakı, 2006.
7. Художественное конструирование. Проектирование и моделирование промышленных изделий. – М., 1986.
8. Эстетика: Словарь. – М., 1989.
9. Эфендизаде Р.М. Архитектура Азербайджана конца XIX – начала XXI века. – Баку, 2012.

***Gulnara Askeralizade (Azerbaijan)***

**Trends of development of modern design in Azerbaijan**

In the article, the author describes the overall situation of the development of modern architectural, industrial and printing design in Azerbaijan as a single field of art-projecting idea. The author also summarizes the trends

of Azerbaijani design, analyzes and evaluates the creative contribution of leading domestic artisans in the architecture, industry and printing design over the past twenty years. It provides the leading trends and key elements of the art language of design that forms the modern visual culture of Azerbaijan.

***Key words:*** polygraphy, industrial design, modern style, architecture, trends of development.

***Гюльнара Аскерализаде (Азербайджан)***

**Тенденции развития современного дизайна в Азербайджане**

В статье автор описывает общую картину развития современного архитектурного, промышленного и полиграфического дизайна в Азербайджане как единой сферы художественно-проектного мышления. Так же обобщает тенденции азербайджанского дизайна, анализирует и оценивает творческий вклад ведущих отечественных мастеров в области архитектурного, промышленного и полиграфического дизайна за последние двадцать лет. Здесь рассматриваются ведущие тренды и основные элементы художественного языка дизайна, формирующего современную визуальную культуру Азербайджана.

***Ключевые слова:*** полиграфия, промышленный дизайн, современный стиль, архитектура, тенденции развития.